**UOT 792.03**
**https://doi.org/10.59849/2218-4783.2025.2.258**

**ƏLİ QƏHRƏMANOV**

# ÜZEYİR HACIBƏYLİNİN OPERA VƏ OPERETTALARI NAXÇIVAN TEATRININ SƏHNƏSİNDƏ

*Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar, dramaturq Üzeyir Hacıbəyli Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş tarixi şəxsiyyətdir. O, yaratdığı sənət inciləri ilə dünya musiqisinin qızıl fondunu zənginləşdirməklə, Azərbaycan mədəniyyətini beynəlxalq miqyasda təmsil etmişdir. Məqalədə Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir bəyin yaradıcılıq yoluna nəzər yetirilir. Dahi bəstəkarın "Leyli və Məcnun", "O olmasın, bu olsun" yaxud "Məşədi İbad", "Əsli və Kərəm", "Arşın mal alan", "Leyli və Məcnun", "Şah Abbas və Xurşidbanu" və s. opera, operetta və musiqili komediyaları müxtəlif rejissorların quruluşlarda Naxçıvan teatrının səhnəsində tamaşaya qoyulması diqqət mərkəzinə çəkilir. Məqalə arxiv sənədləri, dövri mətbuat materialları və görkəmli sənətkarların xatirələri əsasında hazırlanmışdır.*

**Açar sözlər:** *Üzeyir Hacıbəyli, dahi bəstəkar, dramaturq, Naxçıvan teatrı, səhnə, tamaşa.*

**Giriş.** Mədəniyyətimizin ən görkəmli nümayəndələri arasında Üzeyir Hacıbəylinin adı çox haqlı olaraq birincilər sırasında dayanır. Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar, böyük musiqişünas-alim, istedadlı publisist, dramaturq, pedaqoq, ictimai xadim, Xalq artisti, Dövlət mükafatı laureatı, dünya incəsənətinin xəzinəsinə misilsiz töhfələr verən Üzeyir Hacıbəylinin anadan olmasının 140 ili 2025-ci ilin sentyabr ayında tamam olur. Onun qüdrətli, ecazkar sənəti, məlahətli musiqisi uzun illərdən bəri ürəkləri fəth edir. Üzeyir sənətinə məftun olmayan, ona bütün varlığı ilə bağlanmayan adam tapmaq mümkün deyil. Azərbaycan xalqının bu böyük oğlunun yaradıcılığı geniş ictimai-siyasi məna kəsb edir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev 3 fevral 2025-ci il tarixdə Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam vermişdir. Bu Sərəncam Üzeyir Hacıbəylinin çoxşaxəli yaradıcılığına verilən ən yüksək qiymətin təzahürüdür.

**Milli mədəniyyətimizin cəfakeşi.** Bu dahi bəstəkar dövrünün, xalqının zəkalı bir övladı kimi maarifin, teatr və mədəniyyətin inkişafını intibah, tərəqqi amillərindən hesab etdiyi üçün 1908-ci ildə yazdığı "Leyli və Məcnun" operası ilə o, Azərbaycan milli opera sənətinin əsasını qoydu. Ölməz Füzulinin şah əsərini mövzu seçməsi onun klassik mədəni irsə, Füzuli sənətinə münasibətini parlaq şəkildə nümayiş etdirir. Bundan sora o bir-birinin ardınca "Şeyx Sənan" (1909), "Ər və arvad" (1909), "Rüstəm və Söhrab" (1910), "O olmasın, bu olsun", yaxud "Məşədi İbad" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Arşın mal alan" (1913), "Leyla və Harun" (1915), "Koroğlu" (1937) kimi məşhur əsərlərini yaratdı. Bu əsərlər öz müəllifini dahi bəstəkar və əsərləri mənalı gülüşlə zəngin olan bir komediyanəfis kimi tanıtdı. Onun əsərlərində məhəbbət, xalqlar dostluğu və tarixi qəhrəmanlıq motivləri əks olunur. O, istər yazılı, istərsə də şifahi ədəbiyyatdan aldığı mövzulara eyni dərəcədə müvəffəq olur, könülləri fəth edən klassik musiqili əsərlər yaradırdı. Odur ki, böyk sənətkar hələ sağlığında dünya şöhrəti qazanmışdı.

Ü.Hacıbəyli istedadlı jurnalist, alovlu publisist, yorulmaz pedaqoq və görkəmli dramaturq kimi də mənsub olduğu doğma xalqının ictimai fikir tarixində xüsusi yer tutur. "Koroğlu" operası istisna olunmaqla, bütün opera və operettalarının mətnini Ü.Hacıbəylinin özü yazmışdır. XX əsrin kəşməkəşli illərini yaşayan, "Molla Nəsrəddin"in fəaliyyətini ürəkdən bəyənən, satirik ədəbiyyatın, gülüşün mahiyyətini dərindən dərk edən Ü.Hacıbəyli Azərbaycan milli mədəniyyətinin inkişafı uğrunda yorulmadan mübarizə aparırdı. Dahi bəstəkar musiqili komediyanın cəmiyyətin həyatında islahedici, tərbiyəvi əhəmiyyətini gözəl bilirdi. O, publisist məqalələri ilə də bu məqsədə xidmət edirdi. Bəzi məqalələrində isə inqilabi dəyişiklərin zəruri olduğunu da açıq bildirirdi.

Üzeyir Hacıbəyli yenilik əleyhdarlarına, irticaçılara, ictimai və mədəni tərəqqinin düşmənlərinə qarşı amansız olmaqla Azərbaycan professional musiqisinin təməlini qoydu. Xalqla birlikdə hər hansı bir maneəni dəf edəcəyini bilən sənətkar uzaqgörənliyi və əzmi ilə çalışmaqla Azərbaycanda yeni musiqi mədəniyyətinin yaradılması işinə var qüvvəsi ilə girişdi. Dahi dramaturqa görə artıq elə bir vaxt gəlib çatmışdı ki, musiqi sənəti haqqında köhnə, çürük və yanlış əqidələr pozulub, əvəzində yeni, tərəqqipərvər və milli fikirlər hakim olmalı idi. Deməli, musiqi sənətinin tərəqqi və təkamül yolu açıldı.

Görkəmli dramaturqun ayrı-ayrı əsərlərində bunu görmək olur. "Arşın mal alan" musiqili komediyasında dramaturq-bəstəkar özünü istedadlı satirik kimi göstərmişdi. Yenilik uğurlarına görə müsəlman ruhaniləri və burjua-feodal nümayəndələrinin ona qarşı hücuma keçmələrinə baxmayaraq o, qabaqcıl ideyalar uğrunda yorulmadan mübarizə aparırdı. O, yüksək vətənpərvərliyi, zəngin yaradıcılığı ilə ölkəmizdə və eləcə də ölkəmizin hüdudlarından çox-çox uzaqlarda da məşhur idi. Üzeyir bəy orijinal qələm sahibi olan publisist dramaturq, ustad bəstəkar kimi təqdir olunurdu. Hazırda Üzeyir Hacıbəylinin digər əsərləri kimi "Arşın mal alan" komediyası da milyonların sərvətinə çevrilmişdir. Bu əsər dünyanın bir çox şəhərlərində: Parisdə, Berlində, Nyu-yorkda, Qahirədə, Moskvada, Leninqradda, Ankarada, İstanbulda, ümumiyyətlə dünyanın 60-dan çox ölkəsində böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Bu bir daha Üzeyir bəyin sənətinə, qabaqcıl incəsənətin beynəlmiləl əhəmiyyətinə parlaq nümunədir. Ü.Hacıbəylinin fəaliyyətinin genişliyi heyran doğurur. O, yalnız görkəmli bəstəkar deyildi, həm də məşhur pedaqoq, ictimai xadim, dərinzəkalı alim və mütəfəkkir idi. Odur ki, İllər, yüzilliklər ötdükcə Üzeyir bəyin sənəti inkişaf edir, dünya miqyasında pərəstişkarları artır, onun yaradıcılığından nəsillər bir örnək kimi istifadə edirlər.

**Bakılı aktyorlar Naxçıvanda.** Dünya teatrlarının bəzəyi olan Üzeyir bəyin əsərləri Naxçıvan teatrının səhnəsində hələ inqilabdan əvvəl dəfələrlə müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. "1911-ci ildə Zülfüqar Hacıbəyli, Mirzəağa Əliyev, Göyərçin xanım İrəvanda qastrollarını müvəffəqiyyətlə başa vurub Naxçıvana gəlirlər. Onlar burada "O olmasın, bu olsun" musiqili komediyasını Mirzəağa Əliyevin rejissorluğu və Zülfüqar Hacıbəylinin dirijorluğu, şəhər məktəbinin müəllimlərindən Mirzə Ələkbər Süleymanov, Rza Təhmasıb və yerli teatr həvəskarlarının iştirakı ilə Hüseyn xanın binasında yerləşən məktəbin salonunda çox böyük maraqla tamaşaya qoymuşlar" [10; 9]. Tamaşa çox böyük maraqla keçmiş və yerli əhalidə musiqili opera əsərlərinə maraq yaradılmasında ilk başlanğıc olmuşdur.

Naxçıvanlıların teatr və opera tamaşalarına çox böyük maraq göstərdiklərini hiss edən görkəmli səhnə xadimləri tez-tez Naxçıvana qastrollar təşkil edirdilər. Bu haqda SSRİ xalq artisti M.A.Əliyev 1912-ci il qastrolundan bəhs edərək yazır: "1912-ci ilin yay fəsli idi. Üzeyir Hacıbəyovla bir truppa düzəldib İrəvan, Naxçıvan şəhərlərinə qastrola getdik. Truppamız 6 nəfər aktyor, 4 nəfər də aktrisadan ibarət idi. Naxçıvanda yerli həvəskarlar bizə kömək edirdilər. Qadınlar üçün iki dəfə gündüz tamaşası verdik. Bu məni çox sevindirdi. Çünki, o zaman Azərbaycanın heç bir şəhərində qadınların kollektiv surətdə teatra gəlmələrini görməmişdim…Naxçıvanda tamaşa verdik deyəndə elə güman etməyin ki, həqiqətdə o zaman Naxçıvan şəhərində teatr binası var imiş. Xeyir, bizim Naxçıvanda göstərdiyimiz tamaşalarımız Qasım ağanın tövləsində oldu. Mən Naxçıvanda teatr həvəskarlarından şair Əliqulu Qəmküsarla tanış oldum. Onun evində Culfada 15 günə kimi qonaq qaldım. O, bizim teatr işlərimizə böyük köməklik edir, həmişə bizimlə səhnədə qadın rollarında çıxış edirdi" [1, s. 5].

Artıq XX əsrin onuncu illərində Naxçıvanda teatr o qədər şöhrətlənmişdi ki, məktəblərdə müsəlman qızları tərəfindən də tamaşalar hazırlanıb nümayiş etdirilirdi. İnqilabdan əvvəl Azərbaycan teatrlarında aktrisalar yox idi. Qadın rollarını ya kişilər, ya da başqa millətlərdən olub, Azərbaycan dilini mükəmməl bilən aktrisalar ifa edirdilər. Buna görə də qadın truppasının tamaşası böyük ictimai əhəmiyyətə malik idi. O, Şərq qadınının azadlığı uğrunda mübarizədə müvəffəqiyyət kimi qiymətləndirilirdi.

Zülfüqar Hacıbəyli 1917-ci ildə yenidən Naxçıvana gəlir. O, burada bir ilə yaxın yaşayır və həmin müddətdə Ü.Hacıbəylinin “Məşədi İbad”, “Ər və arvad” və özünün “Əlli yaşında cavan” musiqili komediyalarını da tamaşaya qoyur.

**Qızlar məktəbinin dram dərnəyi.** Rəşid bəy Əfəndiyev Naxçıvanda 1917-ci ildə qızlar məktəbinin müdiri olarkən, həmin məktəbin müəlliməsi Nazlı xanım Nəcəfova və Rza Təhmasibin köməkliyi ilə məktəbli qızlardan ibarət dram dərnəyi təşkil edilir. Bu dram dərnəyinin yaradılması o zamankı Naxçıvanın mədəni həyatında görünməmiş tarixi bir hadisə idi. Bu dram dərnəyində Üzeyir bəyin “Arşın mal alan” musiqili komediyasının tamaşaya qoyulması qərarlaşdırılır. Odur ki, bütün həvəskar aktyorlar və qabaqcıl fikirli ziyalılar dram dərnəyinə kömək edirdilər. Məşqlər həm qızlar məktəbində, həm də Nazlı xanımın mənzilində aparılırdı.

1917-ci ilin noyabr ayının 12-də yalnız qadınlar üçün Ü.Hacıbəylinin “Arşın mal alan” musiqili komediyası tamaşaya qoyulur [3, s. 19]. Tamaşa zamanı zal tamaşaçı qadınlarla dolu idi. Tamaşada iştirak edən həvəskarlar öz rollarını yaxşı oynayırdılar. Bu qadınlar truppasına aktyorlar rəhbərlik edirdilər. “Rolları aşağıdakı qadınlar və qızlar: Soltan bəy – Süsən Sultanova, Cahan xala – Gövhər Kəngərli, Süleyman – Asya Məmmədəliyeva, Vəli – Xanım Vəzirova, Gülçöhrə – Dilbər Sultanova, Telli – Fatma Şeyxova ifa edirdilər” [6, s. 89].

Həmin illərdə çar xəfiyyə idarəsi bütün Zaqafqaziyada, o cümlədən Naxçıvanda da müsəlman ziyalıları üzərində möhkəm nəzarət qoyur, xalq kütlələrini cəhalətdə, zülmətdə saxlamağa cəhd edir, bir çox hallarda yerli məktəbləri, teatrı, maarif müəssisələrini bağlayır, bu sahədə göstərilən hər bir təşəbbüsü qadağan edirdi. Bir çox hallarda məktəb, teatr binası tikdirməyə cəhd göstərilmişsə də buna icazə verilməmişdir. Məhz buna görə də xəfiyyə idarəsi “Müsəlman (şiə) İncəsənəti və Dram cəmiyyəti”ni, daha sonra isə “El güzgüsü” və “İmdad” dram cəmiyyətlərinin fəaliyyətini dayandırır. “Şəhər müəllimlərinin təşəbbüsü və həvəskar aktyorların iştirakı ilə 1919-cu ildə “Ümid” dram cəmiyyəti yaradılır. “Ümid” dram cəmiyyətində Ü.Hacıbəylinin “Arşın mal alan” operettası və M.F.Axundovun “Hacı Qara” komediyası tamaşaya qoyulur [2, s. 210]. O dövrdə aktyorlara divan tuturdular. Tamaşa göstərməyə icazə vermir, onların hər cür nəcib təşəbbüsünü boğurdular. Buna görə də Naxçıvanın bir sıra artistləri – Əkbər Abbasov, Əkbər Namazov, Hacı Nəsirov, Teymur Qasımov, Rza Təhmasib, Əli Xəlilov, Rza İsfəndiyarlı, Həmid Mahmudov və başqaları Zaqafqaziyanın ayrı-ayrı şəhərlərinə köçüb getməyə məcbur olurdular.

**Naxçıvan teatrı sovetləşmənin ilk illərində.** XX əsrin 20-ci illərindən etibarən Naxçıvanda teatr sənəti sürətlə inkişaf etməyə başlayır. 1921-ci ildə Naxçıvanda Gənclər İttifaqı yaradılır. Teatra rəhbərlik gənclər təşkilatına həvalə edilir. Həmin ilin noyabrında Naxçıvanın Fövqəladə Komissarı Bahadır Vəlibəyovun təşəbbüsü ilə Naxçıvanda həvəskar qadın aktyorların tərəfindən “Arşın mal alan” operettası Həsən Səfərlinin rejissorluğu və Əliqulu ağa Sultanovun suflyorluğuyla tamaşaya qoyularaq naxçıvanlı qadınlara göstərilir. Tamaşada Susən Sultanova – Soltan bəy, Dilbər Sultanova – Gulçöhrə, Gövhər Kəngərli – Xala, Günəş Kəngərli – Əsgər, Tovuz Nəcəfova – Süleyman, Xavər xanım (Bahadır Vəlibəyovun həyat yoldaşı) – Asya, Xanım Əliyeva – Vəli və Qəmər Nəcəfova (Əliqulu Qəmküsarın qızı) – Telli rolunda oynamışlar. Əliqulu Qəmküsarın qızı Qəmər Salamzadə (Nəcəfova) yazırdı: “Yadımdadır ki, Naxçıvanda olduğum bir neçə ay müddətində tamaşaya hazırlanan “Arşın mal alan” musiqili komediyasında Telli rolunu mənə tapşırdılar. Burada iştirak edən qızların içərisində Soltan bəy və Asya rollarını oynayan Dilbər və Süsən Sultanova bacıları ilə indi də görüşüb o illəri xatırlayırıq” [8, s. 53]. Bu musiqili komediyanın tamaşaya qoyulması qadın azadlığı və çadraya qarşı mübarizədə, qadınların maarif və mədəniyyətə cəlb edilməsində böyük rol oynamışdı. Bu tamaşadan sonra Naxçıvan teatrında kişilərin qadın rolu oynamasına son qoyuldu. Bu dövrdə başqa sahələrdə olduğu kimi teatrın inkişafına ideoloji baxımdan önəm verilir, hər bir tamaşaya sovet hakimiyyətinin yeni təntənəsi kimi yanaşılır, teatr sovet təbliğat maşınının mühüm hissəsi kimi qiymətləndirilirdi.

1923-cü ildə Naxçıvan Vilayət Xalq Maarif Komissarlığının təşəbbüsü ilə bərbad vəziyyətdə olan Naxçıvan teatrının binası əsaslı surətdə təmir edilir. Teatrın repertuarına Ü.Hacıbəyovun "Arşın mal alan", "Məşədi İbad", Z.Hacıbəyovun "50 yaşında cavan" əsərləri də daxil edilir [12, v. 41].

Respublikanın Əməkdar artisti M.H.Qafqazlı 1924-cü ildə bir qrup aktyorla Naxçıvana qastrola gəlir. Camaat onların göstərdiyi tamaşalara maraqla baxır. Xatirində dərin iz buraxmış bu qastrol haqqında sonralar görkəmli aktyor yazırdı: "Yaxşı yadımdadır, 1924-cü ildə Naxçıvana gəlmişdik. Biz Naxçıvan zəhmətkeşlərinə "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu" tamaşalarını göstərirdik. Böyük Azərbaycan bəstəkarı Ü.Hacıbəylinin bu əsərlərindən ibarət olan tamaşalarımız hamıda maraq doğurmuşdu. Baş rolda Hüseynqulu Sarabskinin çıxışı tamaşalarımızın müvəffəqiyyətlə keçməsinə səbəb oldu… Mən Naxçıvanı o vaxtdan tanıyıram. Bu yerin adamları mədəniyyətə hədsiz rəğbət bəsləyən, teatrı və incəsənəti ürəkdən sevən həssas tamaşaçılardır" [4].

Gürcüstan artistləri də Naxçıvan zəhmətkeşlərinin teatra olan böyük həvəs və arzularını nəzərə alaraq tez-tez qastrola gəlirdilər. 1926-cı ilin leysan ayının 9-da (aprelin 22-də – Ə.Q) Tiflis Zəhmət Teatrosunun artistləri Naxçıvana gəlirlər. Onlar Ü.Hacıbəyovun "Əsli və Kərəm" operettasını tamaşaya qoyurlar. Truppanın rəhbəri və rejissoru Artaş Kərəm rolunda çıxış edir. O, çox məlahətli və adamların sinirlərinə təsir edə biləcək avaza malik idi. Tamaşada Əslinin rolunu İvardə xanım, Kərəmin atasının rolunu Seyqaz, Hələb paşasının rolunu Sevarçuk oynayırdı [11]. Yenə həmin ilin avqustun 6-da Tiflis artistlərindən V.S.Muley və Gülbahar xanım başda olmaqla bir dəstə artist Naxçıvana gəlir. Onlar yerli artistlərlə – Əkbər Hüseynov, Teymur Qasımov, Yaqub Qasımzadə və başqaları ilə birlikdə "Əsli və Kərəm" operettasını tamaşaya qoyurlar. Ümumiyyətlə ötən əsrin 20-40-cı illərində Naxçıvan səhnəsində Ü.Hacıbəyovun əsərləri müxtəlif teatr kollektivləri tərəfindən ən çox göstərilən tamaşalar olmuşdur.

**Müharibə və dinc quruculuq illərində.** İkinci Dünya Müharibəsinin qanlı-qadalı günlərində də Ü.Hacıbəylinin əsərləri Naxçıvan teatrının repertuarında özünə geniş yer tutur. 1942-ci ildə Naxçıvan teatrında İbrahim Həmzəyevin quruluşunda və Şamil Qazıyevin bədii tərtibatında Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", 1943-cü ildə Səməd Mövləvinin quruluşunda və Məmməd Qasımovun bədii tərtibatında "Ər və arvad", "Arşın mal alan", 1945-ci ildə isə "Məşədi İbad" əsərləri müvəffəqiyyətlə tamaşaya qoyulmuş, zəhmətkeşlərdə vətənə sonsuz məhəbbət hissləri aşılanmasında böyük rol oynamışdır [13, v. 30]. 1943-cü ildə "Arşın mal alan" musiqili komediyasındakı Süleyman rolunu müharibədə yaralanaraq arxaya göndərilən və həmin vaxtdan da öz taleyini həmişəlik Naxçıvan teatrına bağlayan Məmməd Quliyev (sonralar xalq artisti) oynamışdı. Bu rol Məmməd Quliyevin Naxçıvan teatrında yaratdığı ilk rolu idi.

"Ər və arvad" musiqili komediyasında müəllif ötəri şəkildə dövrün bir sıra məsələlərinə də toxunur. Qəliz ibarəli yazılarla səhifələrini dolduran qəzetlərə, bu təsirlə anlaşılmaz dildə danışan ziyalılara acı-acı gülür. Komediyanın finalı, hadisələrin cərəyanındakı maraqlı komik momentlər sünilikdən uzaq olub, təbii, şən gülüş doğurur. Bu əsərdəki gülüş vasitələri, komizm üçün düşünülən ədəbi-bədii priyomlar, müəllifin sonrakı komediyalarında daha sənətkarlıqla inkişaf etdirilir.

"Ər və arvad" musiqili komediyası ilə Ü.Hacıbəyli göstərdi ki, ayrı-ayrı fərdlərin təbiətində, ailədə və cəmiyyətin özündə olan qüsur və eybəcərlikləri bədii gülüşün təsiri ilə yox etmək yazıçı üçün ən münasib yollardan biridir. Bu sahədə gülüş, həm də musiqi dili ilə birləşib, onunla həmahəng olanda bədii gülüşün müstəsna islahedici təsir gücünə malik olur.

Müharibədən sonrakı dinc quruculuq illərində gənclərə vətənpərvərlik, beynəlmiləlçilik kimi əxlaqi keyfiyyətlərin aşılanması üçün pionerlər evində də dram dərnəyi təşkil edilmişdi. Dərnəyin üzvləri məktəblilər üçün ayda 12-13 tamaşa təşkil edirdilər. Onlar məktəblərlə yanaşı muxtar respublikanın kəndlərində də tamaşalar göstərirdilər. Göstərilən tamaşalar içərisində ən çox nümayiş etdirilən "Məşədi İbad" idi.

Naxçıvan teatrı kadr cəhətdən Azərbaycanın müxtəlif teatrlarına yardım etdiyi kimi Füzuli (keçmiş Qaryagin) tetrına da köməklik edirdi. Belə ki, Azərbaycan İncəsənət İşlər İdarəsi Füzuli teatrına kömək məqsədilə 1948-ci ilin mart ayında İbrahim Həmzəyevi oraya göndərmiş və teatrın direktoru, həmçinin baş rejissoru vəzifəsinə təyin etmişdi. Təsərrüfat hesabına yaşayan Füzuli teatrının vəziyyəti İ.Həmzəyevi narahat etməyə bilməzdi. Tez bir zamanda güclü və rəngarəng repertuar yaratmaq, çatışmazlıqları aradan qaldırmaq lazım gəlirdi. Həmzəyev Füzuli teatrında fəaliyyət göstərdiyi bir il müddətinə "Qaçaq Nəbi", "Vaqif", "Bahar suları", "Durna", "Yaşar" kimi əsərlərlə yanaşı Ü.Hacıbəylinin "Əsli və Kərəm", "Leyli və Məcnun" əsərlərini də müvəffəqiyyətlə tamaşaya qoyur.

Müharibədən sonra Naxçıvan teatrının kollektivi öz ənənəsinə sadiq qalmış və yenidən Ü.Hacıbəylinin yaradıcılığına müraciət etmişdir. "Leyli və Məcnun" görkəmli sənətkar Səməd Mövləvinin yeni quruluşda (rəssam Rəcəb Rəcəbov, dirijor Ənvər Hüseynov, tarzən Tapdıq Hüseynov) 1948-cu il may ayının 12-də ictimaiyyətə təqdim olunur. "Bu tamaşada Füruzə Əlixanova çılğın eşqin nakam qurbanı olan bir qızın-Leylinin surətini, Səməd Movləvi Məcnun surətini özlərinəməxsus ustalıqla canlandırırlar. Digər rolları: Leylinin atasının rolunu Mirhəsən Mirişli, anasının rolunu Xədicə Qazıyeva, Məcnunun atasının rolunu Rza İsfəndiyarlı, anasının rolunu Tamara Məmmədova, Nöfhəl rolunu Məmməd Quliyev, İbni Səlam rolunu Əyyub Haqverdiyev, Zeyd rolunu Cəfər Şeyxov oynamışdılar" [7, s. 150]. Teatrın kollektivi bu tamaşanı muxtar respublikanın bütün rayon və kəndlərində nümayiş etdirmişdir.

Naxçıvan teatrının rəhbərliyi ardıcıl olaraq respublikanın müxtəlif teatrları ilə yaradıcılıq əlaqəsini genişləndirmiş, bu məqsədlə 1969-cu ildə Azərbaycan Opera və balet teatrının artistlərindən bir qrupunu Naxçıvana dəvət etmişdir. Onlar Naxçıvan teatrının kollektivi ilə birlikdə Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" əsərlərini tamaşaya qoymuşlar [14, v. 29].

Naxçıvan teatrında uzun fasilədən sonra 1978-ci il aprelin 28-də görkəmli sənətkarın "Ər və arvad" usiqili komediyasını Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının rejissoru Niyaz Şərifovun quruluşunda, rəssam Nazir Əliyevin bədii tərtibatında göstərilir. Tamaşada əsas rolları Zəroş Həmzəyeva, Əkbər Qardaşbəyov, Yusif Haqverdiyev, Roza Cəfərxanova və digər yerli aktyorlar canlandırırlar.

Böyük bəstəkarın anadan olmasının 100 illiyini bütün tərəqqipərvər bəşəriyyət qeyd etdiyi halda Naxçıvan teatrı kənarda qala bilməzdi. Görkəmli sənətkarın yubileyi münasibətilə "Məşədi İbad" Baxşı Qələndərlinin yeni quruluşunda (rəssam Məmməd Qasımovun bədii tərtibatında, dirijor Fazil Əsədov) 1985-ci il aprel ayının 10-da uğurla Üzeyirsevərlərə təqdim edilir. "Rollarda: İbrahim Məmmədov (Bənəniyarlı) və İsgəndər Abdullayev (Məşədi İbad), Əli Əliyev (Sərvər), Yasəmən Ramazanova (Gülnaz), Əkbər Qardaşbəyov (Rüstəm bəy), Sofya Hüseynova (Sənəm), Tofiq Mövləvi (Rza bəy), Rövşən Hüseynov (Həsənqulu bəy), Həsən Ağasoy (Həsən bəy), Kamran Quliyev (Qoçu Əsgər), Aydın Şahsuvarov (Hambal) rollarını canlandırmışlar" [5, s. 218].

**Nəticə.** Müstəqillik illərində daimi yaşar sənətkarın əsərlərinə böyük ehtiyac duyulurdu. Odur ki, Naxçıvan teatrının kollektivi sələflərinin yolunu davam etdirərək Üzeyir bəyin "Arşın mal alan", "Ər və arvad, "Məşədi İbad" musiqili əsərlərini böyük maraq və yaradıcılıq həvəsi ilə teatrsevərlərə göstərirlər. Teatrının kollektivi dahi sənətkarın "Arşın mal alan", "Ər və arvad, "Məşədi İbad" musiqili əsərlərini Türkiyə Cümhuriyyətinin müxtəlif şəhərlərinə vaxtaşırı etdikləri qastrollarında uğurla türk teatrsevərlərinə təqdim edirlər. Biz inamla deyə bilərik dahi Ü.Hacıbəylinin əsərləri Naxçıvan teatrının bu günədək bəzəyi olmaqla, bütün dönəmlərdə müvəffəqiyyətlə Üzeyirsevərlərə təqdim edilmişdir. Bundan sonra da teatrımız görkəmli bəstəkarın əsərlərinə vaxtaşırı müraciət edəcək, gənclərimizin mənəvi cəhətdən zənginləşməsində mühüm rol oynayacaqdır.

## ƏDƏBİYYAT

1. Əliyev M. Xatirat dəftərçəmdən parçalar... Səhnədən keçən yollar. Bakı: Yazıçı, 1963, 290 s.
2. Hüseynzadə L. Naxçıvan teatrının tarixindən. İncəsənət" almanaxı, "Elm", III c. 1950, 259 s.
3. Xəlilov Ə. Naxçıvan teatrının tarixi. Bakı: ATC, 1964, 93 s.
4. Qafqazlı H.M. Mədəniyyətin çiçəklənməsi. "Şərq qapısı" qəz., 1964, 30 oktyabr.
5. Qəhrəmanov Ə. Naxçıvan teatrında rejissor sənəti. Naxçıvan: Əcəmi, 2020, 448 s.
6. Qəhrəmanov Ə. Naxçıvan teatrı: intibah yollarında. Bakı: MBM, 2008, 160 s.
7. Rəhimli İ., Vəzirov C. Naxçıvan teatrı. Bakı: Aspoliqraf, 2008, 352 s.
8. Salamzadə Q. Kiçik pəncərədən görünən dünya. Bakı: Azərnəşr, 1990, 183 s.
9. "Bakı" qəz., 1911, 29 oktyabr.
10. "Kaspi" qəz., 1911, 25 oktyabr.
11. "Şərq qapısı" qəz., 1926, 31 mart.
12. Naxçıvan MR MDA: F. 40, siy. 4, qov. 7.
13. Naxçıvan MR MDA: F. 15, siy. 1, qov. 25.
14. Naxçıvan MR MDA: F. 589, siy. 7, qov. 70.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: aliqehreman@yahoo.com***

**Ali Gahramanov**

## OPERAS AND OPERETTAS BY UZEYIR HAJIBEYLI ON THE STAGE OF THE NAKHCHIVAN THEATER

Uzeyir Hajibeyli established professional music in Azerbaijan. A brilliant composer and playwright is a historical figure who left an indelible mark on the history of Azerbaijani culture. He represented Azerbaijani culture on an international scale, enriching the golden fund of world music with his artistic pearls. The article examines the creative path of Uzeyir Bey, the founder of the Azerbaijani school of composition. Operas, operettas, and musical comedies by the brilliant composer are staged on the stage of the Nakhchivan Theater in productions by various directors: "Leyli and Majnun", "If not that one, then this one!" or "Mashadi Ibad", "Asli and Kerem", "Arshin mal alan", "Leyli and Majnun", "Shah Abbas and Khurshidbanu" and others. The article is based on archival documents, periodicals and memoirs of outstanding artists.

**Keywords:** *Uzeir Hajibeyli, great composer, playwright, Nakhchivan theater, stage, performance.*

**Али Гахраманов**

## ОПЕРЫ И ОПЕРЕТТЫ УЗЕИРА ГАДЖИБЕЙЛИ НА СЦЕНЕ НАХЧЫВАНСКОГО ТЕАТРА

Узеир Гаджибейли – основоположник профессиональной музыки Азербайджана, гениальный композитор, драматург – историческая личность, оставившая неизгладимый след в истории азербайджанской культуры. Он представлял азербайджанскую культуру в международном масштабе, обогащая своими художественными жемчужинами золотой фонд мировой музыки. В статье рассматривается творческий путь Узеир-бея, основоположника азербайджанской композиторской школы. На сцене Нахчыванского театра в постановках разных

режиссеров ставятся оперы, оперетты и музыкальные комедии гениального композитора: «Лейли и Меджнун», «Не та, так эта!» или «Мешади Ибад», «Асли и Керем», «Аршин мал алан», «Лейли и Меджнун», «Шах Аббас и Хуршидбану» и другие. Статья подготовлена на основе архивных документов, материалов периодической печати и воспоминаний выдающихся художников.

**Ключевые слова:** *Узеир Гаджибейли, гениальный композитор, драматург, Нахчыванский театр, сцена, спектакль.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 01.09.2025**
**Son variant 26.09.2025**